**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**

**DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ**

**LAYİHƏSİ (Kredit No 4595AZ)**

**"BEYNƏLXALQ MALİYYƏ HESABAT STANDARTLARI" MÖVZUSUNDA TƏLİM KURSUNUN KEÇİRİLMƏSİNƏ**

**MARAĞIN BİLDİRİLMƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan Hökuməti Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsinin (DİKPGL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti alıb. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulub.

**Təlim proqramının məqsədi:**

Seçilmiş təcrübəli Azərbaycanlı mühasiblərə-maliyyə menecerlərinə təcrübi biliklər vermək və peşə bacarıqları aşılamaq, nəticə etibarilə, onların Beynəlxalq maliyyə hesabat standartları üzrə beynəlxalq attestasiyadan keçmələrini təmin etməkdir. Beynəlxalq maliyyə hesabat standartları təliminin əsas vəzifələri bunlardır:

- Maliyyə hesabatlarının hazırlanması üçün beynəlxalq standartların dərk edilməsini təmin etmək;
- Beynəlxalq maliyyə hesabatları standartlarının tələblərinə əsasən hesabatların tərtibi və tətbiqi üzrə bacarığın yaradılması.

**İcraçı təşkilat üçün ixtisas tələbləri:**

- Ümumi maliyyə idarəetməsi və yaxud mühasibat üzrə təlim kursunun keçirilməsi sahəsində geniş təcrübə və bacarığa malik olmaq;
- Əsas heyətin müvafiq sahələrdə və təlim kursu sahəsində 3 ildən artıq iş təcrübəsinə malik olması;
- Azərbaycanda nümayəndəliyi olan və Azərbaycan dilində danışmağı bacaran heyətə malik olanlara üstünlük verilir.

**İcra müddəti və yer:** fevral-mart 2010-cu il, Bakı, Azərbaycan

Təhsil Nazirliyi müvafiq təşkilatları qeyd olunan təlim kursunun həyata keçirilməsinə maraqlarını bildirməyə dəvət edir. Xidmətlərə maraq göstərən təşkilatlar ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2010-cu il fevralın 3-nə qədər** aşağıdakı ünvana təqdim edə bilərlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

İcraçı Dünya Bankının "Məsləhətçilərin Borcalanlar tərəfindən seçimi və cəlb edilməsi üzrə Qaydalar"ına əsaslanan *Məsləhətçinin Keyfiyyət Göstəricilərinə* dair satınalma metodu ilə seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


**Azərbaycan Respublikasının Təhsil Nazirliyi,**

**Təhsil Sektorunun İnkişafı Layihəsinin Əlaqələndirmə Qrupu,**

**AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.**

**Əlaqələndirici şəxs: Elvin Rüstəmov**

**Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.**

**Email: erustamov@ultel.net**